*Əliyeva-Kəngərli A. "Qurbani" dastanı və onun variantları*
*// Elmi əsərlər,2019,№1(8),yanvar-iyun,s.3-7.*

**ƏDƏBİYYATŞÜNASLIQ.**
**Mətnşünaslıq. Mənbəşünaslıq. Folklorşünaslıq.**

UOT 398(479.24)

**Aybəniz Əliyeva-Kəngərli**
*filologiya üzrə elmlər doktoru,*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
*e-mail: aybeniz.kengerli@gmail.com*

# "QURBANİ" DASTANI VƏ ONUN VARİANTLARI

**Açar sözlər :** *"Qurbani", dastan, folklor, ozan sənəti, aşıq sənəti.*

Azərbaycan aşıq sənətinin təşəkkül prosesində misilsiz xidmətlərə malik olan Dirili Qurbaninin həyatı və yaradıcılığı, eləcə də onun adına bağlanmış dastanlar hələlik geniş aspektli araşdırma obyektinə çevrilməmişdir. İndiyə qədər bu istiqamətdə M.H.Təhmasib, H.Araslı, V.Vəliyev, M.Həkimov, Q.Kazımov kimi tanınmış alimlər müəyyən toplama və tədqiqat işləri aparsalar da, problemin bir çox tərəfləri açıqlanmamış halda qalmaqdadır. Son illərdə professor Qəzənfər Kazımov Qurbaninin şerlərini müxtəlif variantları ilə birlikdə sanballı bir toplu şəklində nəşr etdirmişdir ki, bu da növbəti araşdırmalar üçün mötəbər bir qaynağa çevrilmişdir. Bundan əlavə, H.Əlizadə, M.H.Təhmasib, Ə.Axundov kimi məşhur folklorşünasiarm müxtəlif vaxtlarda topladıqları «Qurbani» dastanları və son zamanlar əldə olunmuş bir neçə müxtəlif variant bu çevrədə bəzi ümumiləşdirici mülahizələrin irəli sürülməsinə imkan yaradır.

Məlumdur ki, aşıq sənətinin təşəkkül prosesi əsasən on altıncı yüzillikdə stabilləşməyə başlamışdır və Qurbani də bu dövrün bizə bəlli olan ilk klassik aşığıdır. Belə olan tərzdə ehtimal etmək olar ki, Qurbani haqqında yaradılmış dastan da aşıq yaradıcılığına məxsus ilk irihəcmli epik əsərdir, heç şübhəsiz, «Qurbani» dastanı hazırkı kamil və cilalanmış formasını çox sonralar - ağızdan-ağıza, dildən-dilə keçərək arınıb-durulduqdan sonra almışdır. Bir çox klassik aşıq dastanlarının sənətkarın özü tərəfindən yaradıldığını nəzərə alaraq folklorşünaslıqda belə bir qənaətə üstünlük verilir ki, «Qurbani dastanını da Dirili Qurbani yaratmışdır. Bu qəbildən olan digər dastanlarda-«Abbas- Gülgəz, «Xəstə Qasım, «Valeh-Zərnigar» və başqalarında müşahidə edilməyən bir sıra əlamətlərə əsasən «Qurbani» dastanının yaranması ilə bağlı polemik mülahizələr irəli sürmək mümkündür. Bizə belə gəlir ki, «Qurbani» dastanı aşığın özü tərəfindən yaradılmayıbdır. Bunu şərtləndirən bəzi amillərin üzərində dayanmağı zəruri sayırıq.

a) Azərbaycanın müxtəlif aşıq bölgələrində bu dastanın çox variantlı şəkildə mövcud olması və variantlar arasındakı fərqli güclülüyü göstərir ki, dastan Qurbaninin şeirləri əsasında sonradan işlənmişdir.

b) Əsas variantların Gəncə-Göycə-Borçalı xətti boyunca, Qarabağ-Qaradağ çevrəsində, Zəncan-Ərdəbil bölgəsində müşahidə edilməsi həmin mühitlərdə ki, aşıq sənətində yaradıcılıq (dastançılıq) meylinin tarixən qüvvətli olması ilə bağlıdır.

v) Variantlardan əlavə süjet və poetik sistem baxımından köklü dəyişikliklərə uğramış Qurbani» versiyalarının (Diri, Zəncan və Gəncə) mövcudluğu da bu dastanın aşığın özü tərəfindən yaradılmadığını açıqca təsdiqləyir.

Deməli, «Qurbani» dastanı Qurbaninin şeirləri əsasında və olsun ki, həm də onun taleyinin, həyatının müxtəlif məqamlarına uyğun şəkildə yaradılmışdır. Dastanın süjet xəttindəki çoxsaylı xırda epik haşiyələrə əsasən belə bir ehtimal da irəli sürmək olar ki, müxtəlif vaxtlarda Qurbaninin haqqında yaranıb xalq arasında gəzən rəvayət və hekayətlər də sonradan «Qurbani» dastanının yurd yerində yerbəyer edilmişdir. Dastanın hazırda əldə olan ondan artıq variantının və üç versiyasının süjet xətləri boyunca müşahidə edilən mətndaxili əhvalatlar bəzi folklorik müdaxilələrə də məruz qaldıqlarına görə xeyli dərəcədə transformasiyaya uğramış və bu səbəbdən də biri-birindən uzaqlaşmışlar. Qurbaninin öz şeirlərinə də belə müdaxilələrin edildiyi aydın görünür. Ümumiyyətlə, klassik aşıqların dastan strukturuna daxil edilmiş şeirləri öz ilkin formalarını nadir hallarda saxlaya bilir. Qurbaninin şeirləri də belə bir vəziyyətlə üzbəüz qalmışdır.

Azərbaycan xalq dastanlarının kamil bilicisi və görkəmli araşdırıcısı professor M.H. Təhmasibin qənaətinə görə rəmzi-məcazi səciyyə daşıyan «Qurbani» dastanının Gəncə versiyasına məxsus olan variantlar öz dolğuıluğu ilə dikər versiya və variantlardan üstündür. Görkəmli alimin tutarlı dəlil və müqayisələrə əsaslanan məntiqinə istinadən bir daha bu fikirdə möhkəmlənmək olar ki, Qurbaninin öz mahalında-Qarabağda (Diri versiyası) mövcud olan dastanı ilə kənardakı - Gəncə bölgəsindəki dastanın köklü fərqliliyi, ən başlıcası isə, kənardakı dastanını-Gəncə versiyasının üstün bədii-poetik tutumu əsərin Qurbani tərəfindən yaradılmadığını əyaniləşdirir.

Gəncə versiyasının variantlarında həqiqi haqq aşığı kimi yuxuda ikən həzrət Əli tərəfindən badə içib buta alan Qurbani dastanın sonunda öz sevgilisi Pəri xanıma qovuşur. Bu, haqq aşiqləri ilə bağlı olan dastan süjetlərinin ənənəvi başlanma və tamamlanma qəlibləridir. Lakin "Diri versiyası"nda haqq vergisi almış Qurbanini dastanın sonunda ilan vurub öldürür. Göründüyü kimi burada dastan poetikasına məxsus qanunauyğunluq pozulmuşdur. Buna səbəb nədir? Birincisi çox olabilər ki, aşıq Qurbanini həyatda həqiqətən ilan vurub öldürmüşdür və yerli aşıqlar da ölümündən sonra ona dastan qoşarkən həmin bu məqamı süjetin sonunda əks etdirmişlər. İkincisi, aşiqin öz sevgilisinə rəmzi-məcazi obraz olan Pəriyə) qovuşmasını gerçəklikdən mənəvi dünyaya ilahi aləmə keçirmək məqsədilə Qurbaninin (ilahi eşq aşiqinin) və Pərinin (rəmzi-məcazi eşqin obyekti obrazında canlanan gözəlin) fiziki sonluğu təriqət aktı kimi həyata keçirilir. Hər halda hər iki aspekt klassik dastançılıq ənənəsində istisna vəziyyət kimi nəzərə çarpır. Folklorda adətən, müdriklik və yöl göstəricisi səviyyəsində simvollaşmış ilanın dastanın sonunda haqq aşığını vurub öldürməsi ilkin ibtidai çağlardan sonrakı sivilizasiya mərhələsində - erkən orta əsrlərdən etibarən ilana mənfi münasibətin formalaşması-

nın təzahürü kimi də səciyyəvidir.

«Qurbani» dastanının heç bir başqa klassik xalq dastanında müşahidə edilməyən çox versiyalı və çox variantlı olması bir başlıca Səbəblə əlaqədardır: Qurbani orta əsrlərdə yenicə təşəkkül tapmış aşıq sənətinin ilk sanballı, habelə məhsuldar sənətkarı olduğundan məhz onun bədii irsi özündən sonrakı mərhələdə irihəcmli epik süjetlərin yaranmasına real zəmin ola bilirdi və bu zəmin (Qurbanin şeirləri) əsasında müxtəlif aşıq mühitləri özlərinə münasib süjetlər qurmağa başlamışlar - süjet yaratma meyli qüvvətli aşiq mühitlərində daha qabarıq olmuşdur. Tarixən öz qaynarlığı ilə şöhrət qazanmış Gəncə- Göyçə-Borçalı, Qarabağ-Qaradağ və Zəncan-Təbriz-Ərdəbil aşıq mühitləri «Qurbani»nin ilk versiyalarının yarandığı bölgələrdir. Həmin bölgələri ayrı-ayrı aşıq qolları mövcud versiyanm müəyyən süjet məqamlarında bəzi dəyişikliklər-artırma və ya azaltmalar apardığından müxtəlif variantların ortaya çıxması imkanı yaranmışdır. Maraqlıdır ki, ən çox variant ən güclü versiyanın - Gəncə versiyasını ətrafında yayılmışdır. Hazırda əldə olan və bir qismi də Nizami adma Ədəbiyyat institutunun Elmi arxivinin folklor bölməsində saxlanan «Qurbani» variantlarının yarıdan çoxu Gəncə versiyası ilə bağlıdır. Həm versiyanın qüvvətli olması, həm də variantların çoxsaylılığı və çoxçe- şidliliyi Gəncə-Göyçə-Borçalı xətti boyundakı aşıq mühitinin ustad ocaqlarının bədii-estetik səviyyəsi və sənətkarlıq qüdrəti barədə tarixi təsəvvür yarada bilir. Ehtimal etmək mümkündür ki, digər iki versiyanın-Diri və Zəncan «Qurbani»lərinin çoxvariantlığa mey etməməsinin səbəbi həmin bölgələrdəki aşıq mühitlərində yaradıcı aşıqlara nisbətən ifaçı aşıqların üstünlük təşkil etməsidir. Variantların artması ehtimalı həmişə yaradıcı aşıqların sayçoxluğu ilə şərtlənmişdir.

«Qurbani» dastanının versiya və variant çoxluğu aşığın öz şeirlərinə bu və ya dikər şəkildə folklorik yozum verilməsinə, bir sıra hallarda isə ayrı-ayrı ifadə, misra, bənd və şeirlərin dəyişdirilməsinə də gətirib çıxarmışdır. Ona görə də bir şeirin altı-yeddi şəkil dəyişməsinə təsadüf olunur. Belə bir vəziyyətdə isə ilkin formanın hansı şəkildə olduğunu söyləmək xeyli çətinlik törədir. Buna görə də ana versiyanın və ana variantın müəyyənləşdirilməsinə böyük ehtiyac vardır. Bundan ötrü «Qurbani» dastanının folklor xəritəsi tərtib olunmalı və geniş şəbəkəli toplama işi aparılmalıdır. Yalnız belə bir iş görüldükdən sonra məntiqli tutuşdurmalar və folklor qanunauyğunluqlarına söykənən elmi-nəzəri mülahizələr əsasında şeirlərin orijinallığının tarixi mənzərəsini qismən də olsa aydınlaşdırmaq mümkün olar. Özü də bu zaman Qurbani yaradıcılığı ilə bağlı olan başqa bir problemin həllinə də imkan yaranacaqdır.

Bəllidir ki, indiyə qədər Qurbaninin adına gedən bir qisim qoşma və gəraylılar bəzi aşıqların repertuarında Abbas Tufarqanlının, Xəstə Qasımın, Yəhya bəy Dilqəmin adına yaşayır. Bu cür dolaşıq çarpazlaşmalar Zəncan versiyasının mətnində daha çox müşahidə olunmaqdadır. Görünür, həmin bölgənin aşıqları sujetyaratma prosesində Qurbaniyə uyğun şeir tapa bilmədikdə (və yaxud belə bir şeir çatışmadıqda) sonrakı dövrün klassik aşıqlarına məxsus olan şeirlərdən ciliddə «Qurbani» dastanında istifadə etmiş və bu səbəbdən də Tufarqanlı Abbas və Xəstə Qasım kimi sənətkarların bəzi şeirləri tədricən Qurbaninin adına bağlanmışdır. Ola

da bilər ki, bu proses tamam əks istiqamətdə-Qurbaninin şeirlərinin Abbas Tufarqanlı və ya Xəstə Qasımın adına çıxılması şəklində baş vurmuşdur. Yuxarıda qeyd edildiyi kimi çoxsaylı variantlar və onların yayılma imkanlarını əks etdirən folklor xəritəsi ortaya qoyulub köklü surətdə araşdırılmadan son sözü demək mümkün deyildir. «Qurbani» dastanının bütün versiya və variantlarında bərqərar olan və sufilik dünyagörüşündən gələn fəlsəfi-ürfani axarlar aşıq sənətinin təşəkkülü ilə bağlı bir sıra tarixi məqamları, o cümlədən də ozan sənətinin aşıq sənəti ilə əvəzlənməsi prosesinin gedişatını çox inçə çalarla özündə ehtiva edir.

**Ədəbiyyat:**

1. Aşıq ədəbiyyatı antologiyası: 3 cilddə / tərt.: M. Qasımlı, M. Allahmanlı; elmi red. M. Qasımlı.C.1.: Aşıq poeziyası. Bakı, 2017, 592 s.
2. Azərbaycan dastanları. 5 cilddə.C.1. Bakı : Lider, 2005, 392 s.
3. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 2014, 350 s.
4. Əliyeva-Kəngərli A. Azərbaycan folkloru və kitab mədəniyyəti. Bakı: Elm, 2008, 339 s.
5. Qasımlı M.Ozan-aşıq sənəti. Bakı: Uğur, 2011, 304 s.
6. Ozan-aşıq sənətinin nəzəri məsələləri. Bakı: Ozan, 2002, 208 s.
7. Ozan-aşıq sənətinin tarixi. Bakı: Elm və təhsil, 2013, 480 s.

***Айбениз Алиева-Кегнерли***

**ЭПОС «ГУРБАНИ» И ЕГО ВАРИАНТЫ**

**Резюме**

В данной статье дается достоверная информация об эпосе «Гурбани» и его вариантах. Жизнь и творчество ашуга Дирили Гурбани, сыгравшего неоценимую роль в процессе развития ашугского искусства, а также эпосы, связанные с его именем, еще не получили широкого распространения в качестве объекта исследования. Множество версий и форм эпоса «Гурбани» привнесли в той или в другой форме различные фольклорные интерпретации в его собственную поэзию, в некоторых случаях привели к замене отдельных выражений, строк, строф и стихов.

Философские течения, которые во всех версиях и вариантах эпоса «Гурбани» имеют решающее значение и исходят из суфийского мировоззрения, объединяют в себе исторические моменты, связанные с формированием ашугского искусства, и в то же время содержат тонкие оттенки процесса смены искусства озана ашугским искусством.

**Ключевые слова:** *«Гурбани», эпос, фольклор, искусство озана, ашугское искусство.*

***Aybeniz Aliyeva- Kangarli***

**EPOS " KURBANI" AND ITS FORMS**

**Summary**

This presented article is given essential information about epos "Kurbani" and its versions and forms. The life and creativity of Dirili Kurbani, who gave unique services in the formation process of the Azerbaijani ashug art and the epics linked his name in the same way, have not yet been widely translated into research object. The plurality of versions and forms of the epos " Kurbani" brought various folkloric interpretation to his own poetry and in some cases caused replacing separate expressions verses and some poems.

The philosophical currents, which are decisive in all versions and forms of the epos "Kurbani' and come from sufi perspective is combining in it historical points connected with the formation of ashug art, at the same time, the process of replacing of of ashug art to minstrel art with very fine nuances.

**Key words:** *"Gurbani", folk epos, folklore, art of ozan, ashug art.*

*Redaksiyaya daxil olma tarixi: 18.01.2019*
*Çapa qəbul olunma tarixi: 11.03.2019*

*Filologiya üzrə elmlər doktoru* ***Paşa Kərimov*** *tərəfindən çapa tövsiyə olunmuşdur.*